UOT 316
https://doi.org/10.59849/2710-0820.2024.2.233

**Cəfərova Validə**
*Azərbaycan Universiteti Sosial işinin təşkili kafedrasının dissertantı*
*Azərbaycan*
*sharifovavalida@gmail.com*
*https://orcid.org/0000-0002-9952-2815*

# İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏNİN SOSİAL-HÜQUQİ ƏSASLARI

***Açar sözlər:*** *Risk qrupunda olan insanlar, dövlət sosial təminat sistemi, həssas təbəqə, işsizlər, sosial xidmət, tibbi xidmət, məişət zorakılığı, sığınacaq, telefon yardım xətti, potensial qurban, müalicəvi profilaktik*

İnsan alverinin baş verməsinə təsir edən amillər ölkələr, regionlar üzrə dəyişir. Bir ölkə üçün əsas olan səbəb digəri üçün ikinci dərəcəli ola bilər. Mənbə ölkələrində qurbanların formalaşmasına təsir edən səbəblər, təyinat ölkələrində qurbanlara olan tələbat kimi artan tendensiya ilə müşahidə olunmaqdadır. Səbəblər və tələbatlardan insan alverçiləri istifadə edərək öz gəlirlərini artırırlar. İnsan alverinin səbəblərinə iqtisadi problemlər, müharibələr, zorakılığın müxtəlif növləri, ekoloji problemlər və s. misal göstərmək olar. İnsan alverinə məruz qalanların əksəriyyətinin qadınların olması gender problemindən, qadınların hüquqsuz, təhsilsiz, aşağı məşğulluq səviyyəsindən və s. irəli gəlir. Bu səbəblərdən istifadə edən cinayətkarlar "müdafiəsiz" insanların üzərində müxtəlif vasitələrlə hökmranlıq edirlər. Məşğulluqdan daha yaxşı qazanc əldə etmək istəyi ilə insanlar xarici ölkələrə mühacirət edirlər. Miqrantların xarici ölkələrdə tələbatlarını ödəmək üçün riskli əmək şəraiti ilə üzləşməsi mümkündür. Beynəlxalq təşkilatlar insan alverinin səbəblərini azaltmaq üçün qanunvericilikdə, sosial-iqtisadi sahədə, təhsildə və digər sahələrdə tədbirləri gücləndirməyi tövsiyə edir[9,20-21]. Müxtəlif formalarda istismar olunan qurbanlara hazırda müharibə gedən ərazilərdə məcburi əsgər kimi istismar da əlavə olunmuşdur. Z.P.Xaidarzoda gənclərin aldadılaraq xarici ölkələrə aparılması, müharibə zonalarında əsgər kimi istismar olunmaq üçün satıldığı faktların mövcud olduğunu qeyd etmişdir. Aldadılaraq, yalan vədlər verərək müharibə zonalarına aparılanların məcburi əsgər kimi istismar olunmaqdan başqa çarəsi qalmır [19,176]. İnsan alveri probleminin ictimai təhlükəli problem olması, cinayət xarakteri daşıması tədqiqatçılar tərəfindən təsdiq edilir. Risk qrupunda olanların insan alveri qurbanı olması bu sahə effektiv mübarizə üsullarının tətbiqini tələb edir [5,32-37]. Beynəlxalq ictimaiyyət bu sosial problemin qarşısını almaq üçün bütün vasitələrlə mübarizə aparsa da insan alveri aktuallığını itirmir.İnsanların hərəkət azadlığına, işgəncələrə məruz qalmalarına təhlükə olan sosial problem bir sıra dünya ölkələri üçün xarakterik hal almışdır. İnsan alveri keçid dövrü yaşayan, müharibə, münaqişə ocaqları olan ölkələr kimi yüksək iqtisadi inkişaf səviyyəsi olan ölkələrdə belə baş verir. Statistik məlumatlarda qurbanların sayı milyonlarla olduğu qeyd edilir. Lakin onların aciz vəziyyətinin əksər hallarda gizli qalması bu rəqəmi dəqiq təqdim etməyə imkan vermir. Çünki çoxlu sayda insan alveri qurbanı müxtəlif səbəblərdən müəyyən olunmamış qalır [14,90-91].

İnsan alveri probleminin qloballaşması bu problemin həllində ayrı-ayrı dövlətlərin, QHT-ların, beynəlxalq təşkilatların fəaliyyətini labüd etmişdir. Beynəlxalq səviyyədə insan alverinə ilk dəfə 2000-ci ildə BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Palermo Protokolunda tərif verilmişdir. Palermo Protokolunun dünya dövlətləri tərəfindən imzalanması bu problemlə təklikdə mübarizə aparmağın qeyrimümkünlüyündən xəbər verir. BMT-nin İnsan Alverinə Qarşı Mübarizə Protokolunda həmçinin problemin həllində beynəlxalq həmrəyliyə, qanunvericiliyə, müdafiə mexanizmlərinin yaradılmasına və s. ehtiyac olduğu qeyd olunur.

BMT-nin Narkotiklərə Nəzarət və Cinayətkarlığın Qarşısının Alınması İdarəsi "İnsan Alverinə Qarşı Mübarizə üzrə Qlobal Proqram" hazırlayır. Proqramın məqsədi narkotik ticarətinin və insan alveri qurbanlarının qeyri-qanuni istismarının yayılmasının qarşısının alınmasıdır. Buna əlavə olaraq qeyd etmək istərdik ki, Moskvada MDB-yə daxil olan dövlətlər arasında insan orqan və toxumalarının alverinə qarşı mübarizədə əməkdaşlıq etmək üçün müqavilə imzalanıb. Müqavilədə cinayəti törədən fiziki və ya hüquqi şəxslər haqqında məlumat, statistik, əməliyyat, məhkəmə-tibbi məlumatların mübadiləsi nəzərdə tutulur. Qabaqlayıcı tədbirlərin hazırlanması, elmi-metodiki materialların mübadiləsi, pasport və viza nəzarəti informasiya sistemlərinin əlaqələndirilməsi, internetdən qaynaqlanan insan alverinə qarşı tədbirlərin əlaqələndirilmiş şəkildə hazırlanaraq həyata keçirilməsi, insan alveri qurbanlarının reabilitasiyası və sosial reinteqrasiyası sahəsində əməkdaşlıq edilməsi nəzərdə tutulur[15,78-81]. İnsan Alveri Protokolunun qəbulunda qarşıya qoyulmuş ilkin məqsədlərdən biri sosial problem haqqında məlumatlılığın artırılması olmuşdur. İnsan alverinə həssas icmalarda qeyri-qanuni miqrasiya, məşğulluq formalarında baş verə biləcək istismar halları haqqında bilgilərin artırılması, bu sahələrdə monitorinqlərin aparılması ilkin məqsəd olmuşdur. Həssas icmalarda risk qruplarını təmsil edənlərin iqtisadi potensialının artırılması, yoxsulluğun, immiqrasiya qanunlarının, zərərli mədəni nümunələr kimi risk faktorlarının müəyyən qədər aradan qalxması insan alverinə verilən tərifdə öz əksini tapmışdır[17,19-20]. Insan alveri fəaliyyət, vasitə və məqsəd kimi ünsürləri əks etdirən anlayışların məcmusundan ibarətdir. İnsan alveri zorla, məcburən, oğurlanaraq, dələduzluqla, aldadılaraq, səlahiyyətindən və yaxud zəifliyindən sui-istifadə edərək və ya istismar edənin razılığına nail olmaq üçün ödəniş, mənfəət verməklə qurbanları istismar etmək üçün cəlb edilməsidir. İstismarı həyata keçirmək üçün qurbanların daşınması, cəlb edilməsi, təhvil verilməsi, gizlədilməsi istismarçıların fəaliyyətini əks etdirir. Məqsəd isə istimardır. Əməyin istismarı, cinsi istismar, orqan və toxumaların istismarı, uşağın müxtəlif formalarda istismarı və s. kimi müxtəlif istismar növləri mövcuddur[9,24-26]. İnsan alveri kateqoriyasına verilən tariflər nəzəriyyəçilər və praktiklər arasında müzakirə mövzusu olaraq qalmaqdadır. İnsan alveri kateqoriyası bu fenomenlə mübarizədə rəsmi və qeyri-rəsmi orqanlar tərəfindən irəli sürülən nəzəriyyələri, problemin həlli üsullarını özündə əks etdirir. İnsan alveri probleminin həlli nəzəri və praktik tədbirlərin analitik təhlilindən irəli gəlir. İnsan alveri kateqoriyasını yaradan səbəblər müxtəlif olduğu üçün həlli üsulları da müxtəlifliyi ilə fərqlənir. Əgər insan alveri kateqoriyasına cinayətkarlıqdan qaynaqlanan problem kimi yanaşsaq cinayətkarlıqla mübarizə, hüquq-mühafizə orqanlarının fəallığı, beynəlxalq əməkdaşlıq ön plana çəkilir. Son onilliklərdə insan alveri miqrasiya ilə daha çox əlaqələndirilir. Bu zaman əks tədbirlər kimi viza siyasətinin ciddiləşdirilməsi, sərhədlərə nəzarətin artırılması, qeyri-qanuni miqrantların deportasiyası, xarici vətəndaşlarla nigahlara ciddi nəzarət və s. kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Qeyri-qanuni miqrantların ölkədən çıxarılması öz ölkəsində işsizlik problemi ilə üzləşmiş insan alveri qurbanlarının təyinat ölkəsində hüquqlarının pozulması deməkdir. İnsan alveri qurbanları deportasiya edilərkən heç bir müdafiə hüquqlarından istifadə edə bilmirlər. İnsan alverçilərinə qarşı ifadə verə bilmirlər. Ölkə daxili miqrasiya zamanı insan alveri baş verərsə, tədbirlərin məzmunu dəyişir[18,11-16]. İnsan alverinə qarşı mübarizə sahəsində BMqT 1994-cü ildən fəaliyyət göstərir. Bu günə qədər on minlərlə qurbana və 100 ölkəyə yardım edilib. BMqT tərəfindən beynəlxalq və ölkə səviyyəsində problemin tədqiqatı ilə əlaqədar 800 layihə həyata keçirilib. BMqT insan alverinin səbəblərindən olan miqrasiyaya nəzarəti gücləndirməklə problemin həll oluna biləcəyini düşünür. Bunun üçün ayrı-ayrı ölkələrdə insan alverinin müxtəlif formalarının baş vermə səbəbləri ilə bağlı tədqiqatlar aparır, QHT-lar ilə əməkdaşlıq edir. İnsan alveri cinayətinin geniş ictimaiətə çatdırılmasında mediadan istifadə edir. Dövlət institutunun qurbanlara aid strukturları ilə əməkdaşlıq edir. Buna əlavə olaraq, insan alveri qurbanlarının sosial-psixoloji müdafiəsini gücləndirmək üçün tədqiqatlar aparır, qurbanların fərdi ehtiyaclarının müəyyən olunaraq yardım edilməsini təklif edir. BMqT tərəfindən insan alveri qurbanları kateqoriyası haqqında dərsliklər, metodik vəsaitlər, məlumat

kitabçaları hazırlanıb ictimaiətə təqdim edilir. Qeyd etmək lazımdır ki, BMqT http://www.iom.int/cms/countertrafficking saytı və digər elekron ünvanlarla dünya ictimaiyyətini miqrasiya, onun mənfi və müsbət xüsusiyyətləri haqqında məlumatlandırır[12,9-10].

AR-da təhlükəsizlik mühitinin yaradılması, suveren sərhədlərin toxunulmazlığı, vətəndaşların sosial rifahı dövlət qarşısında duran prioritet məsələlərdəndir. Respublikamızın coğrafi mövqeyi, təbii sərvətlərinə olan maraqlar, düşmənçilik siyasəti aparan qonşular təhlükəsizlik siyasətinə ciddi yanaşma tələb edir. Beynəlxalq miqyasda həyata keçirilən terrorlar, qeyri-qanuni miqrasiyaya meyllilik, ölkə ərazisindən narkotik vasitələrin keçirilməsində tranzit kimi istifadə olunması, bəşəriyyət üçün təhlükə mənbəyi olan kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, insan alveri və s. qarşı müdafiə mexanizmlərinin yaradılması üçün əsas verir [8,508-510].

İnsan alverinın qarşısının alınması üçün qanunvericiliyin beynəlxalq hüquqi sənədlər əsasında hazırlanması, onun ölkə ərazisində yayıldığı rayonların müəyyən edilməsi, insan alverinin hansı formalarının yayıldığı analitik təhlillər vasitəsilə müəyyən edilməsi, dövlət və ictimaiyyətin təhlükəsizliyinə səbəb ola biləcək sosial problemin qarşısının alınması üçün tədbirlərin həyata keçirilməsi lazımdır. Milli və beynəlxalq səviyyədə fəaliyyət göstərən QHT-ların səmərəli fəaliyyətinin tənzimlənməsi, insan alverinə qarşı mübarəzə tədbirləri çərçivəsində maarifləndirmə tədbirlərinin gücləndirilməsi, vətəndaşlara bu təhlükəli cinayət haqqında məlumatın verilməsi və s. insan alveri probleminin həllinə yönəldilir. İnsan alveri qurbanlarının və potesial qurbanların müdafiəsinin təşkili, əmtəə kimi satılmış qurbanların, şahidlərin müdafiəsini, profilaktikasını təşkil etmək, cinayətlərə ədalətli cəza vermək üçün həyata keçirilən tədbirlər beynəlxalq səviyyədə qəbul edilmiş insan alverinə qarşı mübarizə tədbirlərinə əsaslanır. Ölkə daxilində və beynəlxalq səviyyədə həyata keçirilən tədbirlərin qiymətləndirilməsi mexanizminin yaradılması sosial problemin ictimai təhlükəli xarakterindən irəli gəlir[6,229-230]. AR Prezidenti İlham Əliyev iqtisadi, sosial, siyasi, milli təhlükəsizliyi dövlət siyasətinin əsası hesab edərək 2007-ci il 23 may tarixində "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nı təsdiq etmişdi[1]. Konsepsiyada insan alverinə qarşı mübarizə tədbirlərinə regional təhlükəsizliyin qorunması, transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə, sərhədlərin qorunması, qeyri-region ölkələri ilə əməkdaşlıq, düzgün miqrasiya siyasətinin aparılması və s. prioritet vəzifə kimi qeyd olunmuşdur. Qeyd etmək istərdik ki, respublikamızda 2005-ci il 28 iyun tarixində "İnsan alverinə qarşı mübarizə haqqında" qanun qəbul edilmişdir [10]. Qanunun qəbulunda məqsəd insan alverinin müxtəlif formalarını, insan alverinə məruz qalmışlara hüquqi qiymətin verilməsini, onların müdafiəsini, reabilitasiya, reinteqrasiya və s. məsələləri nizamlamaqdan ibarətdir. Qeyd etmək lazımdır ki, bu qanundan irəli gələn müddəalar AŞ Konvensiyasının müddəaları çərçivəsində daim təkmilləşdirilir, qurbanlara kompensasiyanın ödənilməsi, İnsan Alveri Qurbanlarına Kömək Fondunun daha effektiv fəaliyyət göstərməsi üçün mütəmadi tədbirlər həyata keçirilir. İnsan alveri qurbanı olmaq təhlükəsi ilə üzləşməmək üçün risk qrupuna daxil olan qadınların və uşaqların sosial müdafiəsinin artırılması preventiv tədbirlərə daxildir. Sosial müdafiəyə ehtiyacı olanların sosial müdafiəyə götürülməsi dövlət sosial təminat sisteminin öhdəliyindədir. Öz yaşayışını təmin etmək imkanı olmayanlar (çətin həyat şəraitində yaşayanlar, əlillər, pensiyaçılar, valideyn himayəsindən məhrum olmuş uşaqlar, insan alveri qurbanları və s.) dövlət institutu tərəfindən sosial təminata alınır. Sosial təminat dövlət büdcəsi hesabına həyata keçirilir. Dövlət büdcəsi vergilər və digər mənbələr hesabına formalaşır. Sosial təminata ehtiyacı olanlar dövlət büdcəsinin yenidən bölgüsü zamanı sosial müavinətlərlə təmin edilir. Çətin həyat şəraitində olanların sosial təminatı, o cümlədən insan alveri qurbanlarının sosial təminata götürülməsi dövlət qarşısında duran vacib məsələlərdəndir[7,227-230]. Sosial təminata əlavə olaraq qurbanların normal həyatlarına qayıtmaq üçün sosial reabilitasiyaya və digər reabilitasiya tədbirlərinə ehtiyacı olur. Qurbanlar milliyyətindən, dinindən, dilindən, yaşından, təhsilindən, cinsindən, tələbatlarından asılı olmayaraq sosial reabilitasiya tədbirlərinə öz razılıqları ilə ödənişsiz cəlb edilir. İnsan alveri qurbanlarına reabilitasiya tədbiri kimi ilk

növbədə fərdi sosial reabilitasiya planı tutulur. Potensial qurbanlar və insan alveri qurbanı olmuşların hüquqlarının bərpa və müdafiəsi, eyni zamanda ailə üzvlərinin psixoloji vəziyyətini yaxşılaşdırmaq məqsədilə psixoloji reabilatasiyaya özlərinin razılığı ilə cəlb edilə bilər. Yardım mərkəzlərində qurbanların tibbi cəhətdən sağlamlıqları nəzarətə götürülür. Ehtiyac olarsa, orqanizmin müalicəvi-praktik tədbirləri İcbari Tibbi Sığorta tədbirləri çərçivəsində həyata keçirilir. Qurbanların təhsilə yönəldilməsi, peşə hazırlığının, məşğulluğunun təmin olunması reabilitasiya tədbirlərinə daxildir. Potensial insan alveri qurbanları öz müraciətləri əsasında sığınacaqda müvəqqəti olaraq məskunlaşa bilərlər. Burada onların şəxsiyyətinin anonimliyi təmin olunur. Özləri razı olmadıqları təqdirdə hüquq-mühafizə orqanlarına və yaxud digər təşkilalara, fiziki şəxslərə məlumat verilmir, vətəndaşın anonimliyi təmin edilmiş olur. Müxtəlif növ istismardan əziyyət çəkmiş qurban 18 yaşdan kiçik olduqda onlar haqqında qəyyumluq və himayə orqanına, eyni zamanda yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya məlumat verilir. Qurbanların və potensial qurbanların sosial reabilitasiya tədbirlərini tənzimləmək məqsədilə ƏƏSMN-nin tabeliyində Sosial Xidmətlər Agentliyinin nəzdində 2009-cu ildən İnsan Alverinə Qurbanlarına Yardım Mərkəzinin əsası qoyulmuşdur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, məişət zorakılığı hazırda cəmiyyətimizdə, ailədə, iş yerlərində daha çox müşahidə edilməkdədir. Zərər çəkmiş şəxslər yardım mərkəzlərinə qəbul edilir və onların konfidensiallığı təmin edilir. Reabilitasiyaya şəxsin razılığı olduğu halda yönəldilir. Reabilitasiya tədbirlərinə hüquqi, tibbi, psixoloji korreksiya və s. aiddir. Məişət zorakılığından əziyyət çəkmiş şəxs müvəqqəti yaşayış yeri, geyim və qida ilə təmin edilir. Müvafiq icra hakimiyyəti orqanlarına psixoloji reabilitasiya və psixoloji korreksiyanın təmin edilməsi haqqında məlumat verilir. Zərərçəkmiş şəxslərin yeni peşələrə yiyələnməsi, məşğulluğunun təmin edilməsi tədbirləri də reabilitasiyaya daxildir. Yardım mərkəzlərində sosial müdafiəyə, sosial ödənişlərin alınmasına lazım olan sənədlərin hazırlanması üçün hüquqi yardım edilir. Ehtiyac olarsa, zərərçəkmişlərin ailə üzvləri reabilitasiyaya alınır. Fərdi sosial reabilitasiya planı tərtib edilərkən zərərçəkmişin ehtiyacı olduğu yardım növləri qeyd edilir və plan əsasında reabilitasiya daha səmərəli şəkildə həyata keçirilir. Məişət zorakılığından əziyyət çəkənlərə reabilitasiya tədbirləri çərçivəsində göstərilən xidmətlər ödənişsiz həyata keçirilir. Məişət zorakılığından əziyyət çəkən uşaqlar 3(üç) ay müddətində sığınacaqla təmin olunurlar. Cinayət təqibini həyata keçirən və yaxud digər əlaqədar orqanlar göndəriş təqdim etdikləri təqdirdə zərərçəkmişlər 2(ay) müddətində sığınacaqda qala bilərlər. Uşaqlar sığınacaqla təmin edilərkən qanuni nümayəndəsi və yaxud zərərçəkmişin razılığı nəzərə alınır. Əgər məişət zorakılığından əziyyət çəkən 10 (on) yaşdan yuxarı olarsa, uşağın öz fikirləri nəzərə alınır. Məişət zorakılığında əziyyət çəkmiş uşaqlara xüsusi həssaslıqla yanaşılır. Onlar haqqında yardım mərkəzinin yerləşdiyi rayonun qəyyumluq və himayə orqanına məlumat verilir. Həmçinin, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya məişət zorakılığından zərərçəkmiş uşaqlar haqqında məlumatlandırılır. Sığınacağa yerləşdirilmiş uşaqlar təhsillərini davam etdirmək imkanına malikdirlər. Məişət zorakılığının səbəbkarı valideynlər olmadığı halda valideyn övladı ilə birlikdə sığınacağa yerləşdirilə bilər və ya əlaqə, ünsiyyət saxlaya bilər. Zərərçəkmiş uşaqlar psixoloji vəziyyətlərinə mənfi təsir edən şəxslərlə birlikdə sığınacaqda yerləşdirilmir. Zərərçəkmişlər konfidensial söhbət aparmaq, telefondan və tərcüməçi xidmətlərindən sığınacaqda qaldıqları müddətdə istifadə edə bilərlər. Zərərçəkmişlərin sığınacaqda təhlükəsiz və layiqli şəkildə, hüquq və azadlıqları, sağlamlığı qorunur. Məişət zorakılığından zərərçəkmişlər sığınacağın intizam qaydalarını pozduqları təqdirdə müdiriyyət tərəfindən mərkəzdən çıxarılır. Zərərçəkmişlərin müraciətlərini qəbul etmək üçün telefon yardım xətti fasiləsiz, 24 saat fəaliyyət göstərir [2].

İnsan alveri qurbanlarının hüquqlarının müdafiəsi üçün Ombudsman təsisatı tərəfindən müxtəlif ail məktəblərin tələbələrinə, media nümayəndələrinə, QHT-ların əməkdaşlarına, qadın məhkumlara insan hüquqları haqqında təlimlər keçirilmişdir. Ombudsman təsisatının təmsilçiləri qeyri-qanuni miqrantların məskunlaşdığı sığınacaqlarda onların real durumunu

monitorinq etmişdir. Xarici ölkələrdə istismara məruz qalmış, insan alverinin subyektinə çevrilmiş ölkə vətəndaşlarının normal həyata sosial reabilitasiyası və reinteqrasiyası tədbirlərində yaxından iştirak etmişdirlər[3, 59-60]. Azərbaycan Respublikasında XX əsrin son on illiyindən hazırkı dövrümüzə qədər olan dövr ərzində baş verən siyasi dəyişikliklər, müharibə, iqtisadi problemlər, MDB dövlətləri ilə sərhədlərin açıq olması, tranzit yolların buradan keçməsi insan alveri fenomeninin formalaşmasına səbəb olmuşdur. İnsan alverçiləri keçid mərhələsində olan, təbii ehtiyatları zəngin olan ölkələrin vətəndaşlarını hədəfə alırlar. İnsan alverinin əsas səbəblərindən biri yaxşı yaşamaq məqsədilə xarici ölkələrə miqrasiya edənlərin sayının artırmasıdır. Potensial insan alveri qurbanlarına yoxsullar, uğursuz nigahdan boşananlar, məişət zorakılığının qurbanları, səfil uşaqlar arasında daha çox rast gəlinir. İnsan alveriçiləri qurbanları müxtəlif səbəblərdən borc asılılığına salırlar. Bura sənədlərin hazırlanmasına xərclənən pullar, nəqliyyat xərclərinin ödənməsi, yaşayış yeri ilə təmin olunma və s. xərclər aid ola bilər. Heç bir sosial dəstəyi olmayan qurbanlar bu borcları ödəyib qurtara bilmirlər. Xarici ölkədən deportasiya olunmaq qorxusu, qurbanın düşdüyü çətin vəziyyət, yaşadığı ölkənin dilini bilməməsi onun hüquqi addım atmasına mane olur [11,5-7].

İnsan alveri qurbanları cətin həyat şəraitində olanlar kateqoriyasına aid olduqları üçün dövlət tərəfindən sosial təminat hüquqları vardır. Sosial təminat hüququnun icraçıları, obyektləri vətəndaşlar, dövlət institutu, habelə təşkilatlardır. Sosial təminat hüququnun subyektləri əhalinin risk qrupunda təmsil olunan həssas təbəqələrinin sosial cəhətdən dövlət tərəfindən təminatı ilə bağlı həyata keçirilən tədbirlərinin məcmusudur. Sosial təminat pensiya, müavinət, insan alveri qurbanlarına ödənilən kompensasiya, pulsuz tibbi xidmətin göstərilməsi, ödənişsiz dərman təminatı, ödənişsiz və yaxud güzəştli sosial xidməti və s. əhatə edir[13,11-13]. Sosial təminat iqtisadi, siyasi, demoqrafik, sosial-reabilitasiya, profilaktik və digər funksiyaları reallaşdırır. İnsan alveri qurbanları əsasən sosial təminatın sosial-reabilitasiya və profilaktik funksiyalarının həyata keçirilməsindən faydalanırlar. Sosial reabilitasiya funksiyası insan alveri qurbanlarına cəmiyyətə tam hüquqlu vətəndaş kimi reinteqrasiyasına kömək edir. Profilaktika funksiyası riskli həyat tərzi sürənlərin, az təminatlı ailələrin, işsizlərin, valideyn himayəsindən məhrum olmuşların və s. sosial yardımla təmin edilərək ehtiyaclarının normal şəkildə ödənməsidir. Sosial təminat və sosial müdafiə çətin həyat şəraitində olanların müxtəlif vasitələrlə normal yaşayışını təmin edən dövlət siyasətinin tərkib hissəsidir [16,14-15].

Yuxarıda qeyd edilənləri nəzərə alıb, insan alverini və onun qarşısının alınması tədbirlərini belə xarakterizə etmək olar:

– Sosial xidmət və sosial müdafiənin həyata keçirilməsi məqsədyönlü və səmərəli olması üçün dövlət institutu tərəfindən bir sıra tədbirlərin həyata keçirilməsi lazımdır. Bunlara mükəmməl qanunvericilik, dövlət proqramlarının qəbulu, vətəndaşların sosial xidmətlərdən yaralanması üçün sadələşdirilmiş prosedurların tətbiqi, sosial xidmətlər sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətindən geniş surətdə istifadə edilməsi və s. aiddir. Bütün bunları səmərəli şəkildə həyata keçirmək üçün müxtəlif monitorinqlər vasitəsilə dövlət nəzarəti gücləndirilməlidir. Ölkə əhalisinin müxtəlif meyarlar üzrə statistik nəticələrinə əsaslanan sosial ehtiyacları müəyyənləşdirilməlidir. Qəbul ediləcək sosial təminat və sosial xidmətə dair qanunvericilik nəzərə alındığı təqdirdə dövlət sosial siyasəti vətəndaşların ehtiyaclarını qarşılamış olacaq. AR-da insan alveri qurbanlarının reabilitasiyası və reinteqrasiyası üçün ona yaxın QHT qeydiyyatdan keçmişdir.Ancaq bu barədə məlumatlar yenilənməmişdir. Hazırda bu məlumatın nə dərəcədə həqiqəti əks etdirməsini söyləmək çətindir. Praktiki olaraq QHT-ların fəaliyyəti şübhə doğurur. QHT-ların insan alveri qurbanları ilə iş sahəsində fəaliyyətinin aktivləşməsi üçün dövlət institutu tərəfində sosial sifarişlı layihələrin verilməsi məqsədəmüvafiq olardı.

– İnsan alveri müxtəlif sosial-iqtisadi xarakterli böhranlardan və digər problemlər səbəbindən formalaşmış sosial fenomendir. İnsan alverinə qarşı mübarizə tədbirlərinə sosial problemlərin həll edilməsi, əhalinin həssas təbəqələrinin sosial təminatının yaxşılaşdırılması, dövlət sosial siyasətinin vətəndaşların rifahına yönəldilməsi məqsədəuyğun olar.

– Azərbaycan Respublikasında əhalinin sosial rifah halında yaşaması, ehtiyaclarının ödənməsi üçün qanunvericilik və sosial ödənişlər bazar iqtisadiyyatına, gündəlik tələbatlara uyğun olan qiymətlərlə balanslaşdırılır. Ölkədə 2024-cü ilin yanvar ayından başlayaraq ehtiyac meyarı 270 manat məbləğində qəbul edilmişdir[4]. AR DSMF tərəfindən əlilliyi müəyyən olunmuş şəxslərə, işsizlərə, ailə başçısının itirilməsinə və digər səbəblərə görə sosial yardım təyin edilir. Ailə üzvlərinin ehtiyac meyarı ödənmədiyi təqdirdə ünvanlı dövlət sosial yardımı Dövlət Sosial Müdafiə Fondu tərəfindən təyin edilir və dövlət büdcəsi hesabına vətəndaşlara ödənilir.

– İnsan alveri qlobal problemə çevrildiyinə görə ona qarşı mübarizə milli və beynəlxalq tədbirlərin inteqrasiyası şəraitində həyata keçirilməsinə ehtiyac yaranmışdır. Beynəlxalq sferada qəbul edilmiş qanunların ayrı-ayrı dövlətlərin qanunvericiliyində tətbiqi, reabilitasiya və reinteqrasiya tədbirlərinin eyni qaydada həyata keçirilməsi bu problemlə mübarizədə dövlətlərin əməkdaşlığının genişləndirilməsini tələb edir.

– Siyasi sabitliyin qorunması, əhalinin aşayişinin təmin edilməsi, məşğulluğun artırılması işçi qüvvəsinin miqrasiyasının qarşısını almağa, ölkənin sosial potensialının qorunmasına səbəb olar.

– Xaricə miqrasiya edən ölkə vətəndaşlarının insan alveri haqqında məlumatlılığının artırılması müasir dövrdə olduqca aktualdır. Dövlət Miqrasiya Xidmətinin əməkdaşları tərəfindən onlayn sorğular vasitəsilə miqrasiya etmiş vətəndaşlarımızın real durumu, qazancları və əmək şəraitləri haqqında monitorinqlər aparılması onları insan alveri riskindən müdafiə etmiş olar.

– BMqT-nın və milli QHT-ların vətəndaşların miqrasiyası zamanı insan alverinə məruz qalmamaqları üçün preventiv tədbirlərin həyata keçirilməsində, elmi-metodiki materialların hazırlanmasında, müxtəlif formalarda həyata keçirilən insan alveri haqqında təbliğat tədbirlərinin aparılmasında fəaliyyətlərinə ehtiyac vardır. İnsan alveri qurbanlarının reabilitasiyası bitdikdən sonra belə vətəndaş cəmiyyəti təşkilatları vasitəsilə məşğulluğunun təmininə, yaşayış sahəsinin təmininə, bir sözlə rifah halında yaşaması üçün maddi və mənəvi cəhətdən dəstəklənməsi məqsədəuyğun olar.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqındaAzərbaycan Respublikasi Prezidentinin sərəncami URL: https://e-qanun.az/framework/13373
2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdinə Dayanıqlı və Operativ Sosial Təminat agentliyinin rəsmi internet saytı. URL: http:// https://dost.gov.az/services/social-services/?kt=4
3. Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikasının(59-60) İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2022-ci il üzrə məruzəsi, Bakı – 2023 səh.103
4. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikasının Qanunu URL:https://president.az/az/articles/view/62789
3. Əliyev, M.N., Əliyeva, T.İ. İnsan alveri qurbanlarının və məişət zorakılığından əziyyət çəkən şəxslərin sosial xidmət hüququnun subyekəri kimi hüquqi statusu// - Bakı: Qanun,- 2020. № 6, - s.32-37(32-37)5.
6. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik/ Ə.İ.Əliyev. - Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, - 2013. səh.507
7. Əsgərov Z.A. Konstitutsiya hüququ. Dərs vəsaiti / Z.A.Əsgərov. –Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, - 2011, səh.760
8. Həsənov Ə.M. Azərbaycan respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. /Ə.M.Həsənov. – Bakı: Zərdabi LTD, 2016, səh.700
9. Insan alverinə qarşı mübarizə. Dərs vəsaiti. 2016 BMqT, səh.166
10. İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasinin Qanunu URL:https://eqanun.az/framework/10641
11. Insan alveri: metodik tövsiyələr və normativ sənədlər./- Bakı: Qanun 2009 səh.412 BMqT (5-7)
12. İnsan ticareti mağdurlariyla sosyal hizmet./- Antalya: 2014, səh 110 (9-10)
13. Лагутин И.Б., Шахова Е.С., Воронов Е.Н. [и др.] Право социального обеспе-

чения: учеб. пособие / И.Б. Лагутин, Е.С.Шахова // Курск, -2015. – 156 с.

14. Ларин А.Н. Психологические особенности жертв торговли людьми [Электронный журнал «Психология и право» www.psyandlaw.ru] 2015, Том 5. № 3. С. 90-97 2015, Vol. 5. no. 3. pp. 90-97 doi: 10.17759/psylaw.2015050308 ISSN-online: 2222-5196
15. Лукач Н. М. Международный опыт преодоленияглобальной проблемы торговли людьми/ Н. М.Лукач// Век глобализации, 2016, № 4,-с.78-87
16. Право социального обеспечения. Общая часть : учебник / коллектив авторов ; под ред. Буяновой М.О. – Москва : КНОРУС, -2021,- 224 с. (Бакалавриат).
17. Предотвращение торговли людьми: Объединенные Нации, Модуль 7, - Вена, -2020,-с.68
18. Социальная помощь жертвам торговли людьми, особенно женщинам. Практическое руководство для социальных работников и психологов Издание второе, - Кишинев,-2004, -с.155
19. Хайдарзода З.П. Развитиеорганизационно-структурных подразделений УБОП МВД РТ в сфере противо-действия организованной преступностии торговле людьми/ З.П.Хайдарзода// Вестн. Волгогр. гос. ун-та. Сер. 5, Юриспруд.,-2016, -№ 3 (32),- с.175-181

## Summary

**Jafarova Valida**

### Social problems affecting the formation of the phenomenon of human trafficking

Factors affecting the occurrence of human trafficking vary by country and region. The causes of human trafficking include economic problems, wars, various types of violence, environmental problems, etc. an example can be given. The fact that the majority of victims of human trafficking are women is due to the gender problem, women's lack of rights, lack of education, low employment level, etc. comes forward. There are facts that young people are tricked into being taken to foreign countries and sold to be exploited as soldiers in war zones. The social problem that threatens people's freedom of movement and torture is characteristic of a number of countries of the world. Creating a security environment in AR, inviolability of sovereign borders, social welfare of citizens are among the priority issues facing the state. The creation of a mechanism for the evaluation of the measures implemented within the country and at the international level stems from the socially dangerous nature of the social problem. Preventive measures include increasing the social protection of women and children in the risk group in order not to face the danger of becoming a victim. It is the responsibility of the state social security system to take those who need social protection into social protection. Victims of human trafficking receive social security from the state institution. Regardless of their nationality, religion, language, age, education, gender, and needs, victims are involved in social rehabilitation measures free of charge with their consent. Legislation, adoption of state programs, application of simplified procedures for victims' injury from social services, extensive use of non-governmental organizations' activities in the field of social services are part of the preventive and proactive measures adopted in this field.

***Keywords:*** *People at risk, state social security system, vulnerable group, unemployed, social service, medical service, domestic violence, shelter, telephone helpline, potential victim, curative preventive*

## Резюме

**Джафарова Валида**

**Социальные проблемы, влияющие на формирование феномена торговли людьми**

Факторы, влияющие на возникновение торговли людьми, различаются в зависимости от страны и региона. К причинам торговли людьми относятся экономические проблемы, войны, различные виды насилия, экологические проблемы и т.д. можно привести пример. Тот факт, что большинство жертв торговли людьми составляют женщины, обусловлен гендерной проблемой, бесправием женщин, отсутствием образования, низким уровнем занятости и т. д. выходит вперед. Имеются факты, что молодых людей обманом вывозят в зарубежные страны и продают для эксплуатации в качестве солдат в зонах боевых действий. Социальная проблема, угрожающая свободе передвижения людей и пыткам, характерна для ряда стран мира. Создание обстановки безопасности в АР, нерушимость суверенных границ, социальное благополучие граждан входят в число приоритетных задач, стоящих перед государством. Создание механизма оценки реализуемых мер внутри страны и на международном уровне обусловлено социально опасным характером социальной проблемы. Профилактические меры включают усиление социальной защиты женщин и детей из группы риска, чтобы не столкнуться с опасностью стать жертвой. Ответственность за то, чтобы те, кто нуждается в социальной защите, была взята на социальную защиту, лежит на государственной системе социального обеспечения. Жертвы торговли людьми получают социальное обеспечение от государственного учреждения. Независимо от национальности, вероисповедания, языка, возраста, образования, пола и потребностей потерпевшие с их согласия привлекаются к мерам социальной реабилитации бесплатно. Законодательство, принятие государственных программ, применение упрощенных процедур возмещения ущерба пострадавшим от социальных услуг, широкое использование деятельности неправительственных организаций в сфере социальных услуг являются частью профилактических и упреждающих мер, принимаемых в этой сфере.


***Ключевые слова:*** *Люди группы риска, государственная система социального обеспечения, уязвимая группа, безработные, социальная служба, медицинское обслуживание, домашнее насилие, приют, телефон доверия, потенциальная жертва, лечебно-профилактический*